


# Zəfər tarixinin xronikası

## 3 oktyabr 2020-ci il

İşğalçılıq siyasəti yeridən təcavüzkar Ermənistan Azərbaycan torpaqlarına sentyabrın 27-də, səhər saatlarında genişmiqyaslı hücuma keçdi. Sərhəd məntəqələrimizi, dinc vətəndaşlarımızı ağır artilleriya atəşlərinə məruz qoyan düşmən ilk gündən ordumuzun əks-hücumu ilə layiqli cavabı aldı.

Artıq bir neçə gündür ki, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının qarşısı silahlı qüvvələrimiz tərəfindən qətiyyətlə alınır, bütün istiqamətlərdə düşmənə sarsıdıcı zərbələr endirilir. Uğurlu hərbi əməliyyatlarla bağlı xəbərlər ictimaiyyətdə rəğbət hissi doğurur.

Həmin gün:

– Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərib.

Məktubda deyilir ki, sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribata əl atıb. Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutub. Bu təxribat nəticəsində indiyə kimi hərbçilərimiz, 19 mülki şəxs, həmçinin iki uşaq həlak olub, 55 mülki şəxs yaralanıb. Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb.

Məktubda qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatının ilk saatlarından etibarən qardaş Türkiyə Respublikası bütün səviyyələrdə bu xain təcavüz aktını qətiyyətlə pisləyib. "Sizin məsələyə dair çox açıq və sərt bəyanatlarınız bir daha Azərbaycanın öz haqq işində yalnız olmadığını göstərib. Türkiyənin müvafiq dövlət qurumlarının rəhbərləri, parlament üzvləri və ictimaiyyət nümayəndələri də məsələyə qəti və birmənalı münasibət bildiriblər. Mən hər gün türk qardaşlarımızdan çoxsaylı dəstək məktubları alıram. Bütün bunlar Azərbaycan–Türkiyə birliyinin növbəti bariz nümunəsidir və Azərbaycan xalqı tərəfindən ən yüksək şəkildə qiymətləndirilir. Bu dəstəyə görə Sizə və qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından təşəkkür edirəm", – deyə dövlətimizin başçısı bildirib;

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə və Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekova məktub ünvanlayıb.

Dövlətimizin başçısı məktublarda Ermənistanın sentyabrın 27-də başlanan hücumunun planlaşdırılmış hərbi təxribat olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Ermənistan rəhbərliyinin danışıqlar prosesini pozmağa yönəlmiş bəyanatları, iyul-avqust aylarında törədilmiş hərbi təxribatlar, Azərbaycanın işğal olunmuş ərazilərində xarici ölkə vətəndaşlarının qeyri-qanuni məskunlaşdırılması Ermənistanın öz təcavüzkar siyasətindən əl çəkmədiyini və yeni müharibəyə hazırlaşdığını göstərir;

– Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Tərtər rayonunun Talış, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərini azad etdiyini, Madagizdə Azərbaycan bayrağının qaldırıldığını və onun tarixi adının bərpa edilərək bundan sonra Suqovuşan adlandırıldığını yazıb;

– Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında qardaş Türkiyənin hər fürsətdə Azərbaycana dəstək göstərdiyini qeyd edib;

– Prezidentin köməkçisi, eyni zamanda, "Russia Today Arabic" kanalına verdiyi müsahibədə Qarabağda döyüşlərin yenidən alovlanmasının səbəblərini açıqlayıb.

*(ardı 4-cü səhifədə)*

# Zəfər tarixinin xronikası



*(əvvəli 1-ci səhifədə)*

## Əlli siyasi partiyanın rəhbəri Ali Baş Komandana dəstək ifadə edib

Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya rəhbərinin iştirakı ilə oktyabrın 3-də Prezident Administrasiyasında "Milli həmrəylik – siyasi dialoqun nəticəsi" adlı videokonfrans formatında görüş keçirilib. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə reallaşan tədbirdə ölkənin siyasi partiyalarının rəhbərləri bir araya gəlməklə, Azərbaycanda yaşanan milli və siyasi həmrəyliyi bir daha nümayiş etdiriblər.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildiriblər.

## Dünya Azərbaycanın haqq işini dəstəkləyir

– Almaniya Bundestaqının hakim Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının deputatları – Xarici siyasət komitəsinin üzvü, fraksiyanın Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbel və Almaniya-Cənubi Qafqaz parlament qrupunun üzvü Eberhard Qinqer Ermənistanın növbəti təxribatı ilə bağlı bəyanat yayıblar;

– Latviyanın da Riqa şəhərində Ermənistan ordusunun növbəti təxribatlarına qarşı Azərbaycan ordusunun əks-hücum əməliyyatlarına dəstək məqsədilə yürüş keçirilib;

– "Əl-Cəzirə" telekanalı Azərbaycanın Tərtər rayonundan növbəti reportajı yayımlayıb. Reportajda Azərbaycanın mülki əhalisinin, mülki obyektlərinin hədəfə alındığı, məktəblərin, evlərin, hətta xəstəxanaların zərər gördüyü, onlarla ölən və yaralananların olduğu qeyd edilib;

– Ermənistan ordusunun Tərtər rayonunda yaşayış məntəqələrini və mülki insanları artilleriya atəşinə tutması ilə bağlı daha bir reportaj "Əl-Arabi" telekanalı tərəfindən yayımlanıb. Reportajda Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla Azərbaycan Ordusunun irəlilədiyi, insanlar arasında, orduda ruh yüksəkliyinin olduğu bildirilib.

## Azərbaycan Prezidentinə dəstək məktubları gəlir...

Müzəffər ordumuzun cəbhədə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını müvəffəqiyyətlə alması, əks-hücum əməliyyatı nəticəsində düşmənə ağır zərbələr endirməsi Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin və xarici ölkə vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar qürur hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.

Goranboy rayonundan Rübabə İsmayılova yazır: "Hörmətli cənab Prezident. Sizin rəhbərliyinizlə Azərbaycanın rəşadətli ordusunun göstərdiyi şücaətlər bizi sevindirir. Bu münasibətlə Sizi səmimi qəlbdən təbrik edirik. Biz Sizin haqq işinizi dəstəkləyirik və Sizinlə birlikdəyik. İnanırıq ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, biz Qarabağı azad edəcək və şəhidlərimizin ruhunu şad edəcəyik. Allah Sizi bu xalqdan, xalqı da Sizdən ayırmasın".

Zaqatala rayonunun Yuxarı Tala kəndindən Kamal Kamalov sevinc hislərini bu sözlərlə ifadə edir: "Cənab Ali Baş Komandan. Mən Qarabağ döyüşləri əlilinin oğlu olaraq, Sizi yeddi kəndin alınması ilə bağlı xəbərinizi ürəkdən təbrik edirəm. Çox az qaldı, cənab Prezident. Düşmənləri bizim torpaqlardan çıxaracağıq. İşğal etdikləri ərazilərimizi tərk etmələri üçün bu zamana qədər düşmənə vaxt verdik, lakin torpaqlarımızdan çıxmadılar. Biz də öz torpaqlarımız uğrunda öz torpağımızda döyüşürük. Vətən məni bu dəqiqə çağırsa, ön cəbhəyə getməyə hazıram. Şəhidlərin qanı yerdə qalmayacaq. Qələbə bizimdir. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!".

## Məkrli düşmənin hədəfi yenə də mülki əhalidir

Sentyabrın 27-dən etibarən hərbi təxribatlara başlayan işğalçı Ermənistanın faşist xislətli rejimi ənənəsinə sadiq qalaraq yenə də çirkin simasını göstərir, kəndlərimizi, dinc əhalini nişana almaqdan çəkinmir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Son məlumata görə, Ermənistan silahlı qüvvələrinin qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini artilleriyadan atəşə tutması nəticəsində ikisi uşaq olmaqla, 19 nəfər mülki şəxs həlak olub, 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq yaralanıb.

Şanlı ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, fərdi və çoxmənzilli yaşayış binalarını, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlətin əmlakına ciddi ziyan yetirir.

Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində 181 ev və 44 mülki obyekt yararsız vəziyyətə düşüb.

## Ermənistan ordusunun məhv edilən döyüş texnikasının siyahısı

Oktyabrın 3-də Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini düşməndən təmizləməklə, ərazini işğalçı qüvvələrdən təmizləyib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilib.

Müharibə başlanandan indiyədək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

-230-dək tank və digər zirehli texnika;

-250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;

-38 ədəd hava hücumundan müdafiə vasitələri;

-10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;

-7 silah-sursat anbarı;

-130-dan artıq avtomobil texnikası;

-1 ədəd "S-300" zenit-raket kompleksi.

***

Azərbaycan Ordusu oktyabrın 3-də Tərtər rayonunun Talış, Suqovuşan yaşayış məntəqələrini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərini azad edib.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.- 2021.- 3 oktyabr.- S.1;4.